BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2006*

# YUBİLEY KONFRANSININ AÇILIŞINDA SÖYLƏNMİŞ NİTQİ

**A.M.MƏHƏRRƏMOV***

1926-cı il 26 fevral – 6 mart tarixində Bakı şəhərində I Türkoloji Qurultay çağırıldı. Qurultayı Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd Ağamalıoğlu açdı. SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Azərbaycan SSR Xalq Komissarlar Soveti adından SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri Qəzənfər Musabəyov qurultayı salamladı. Qurultayın 131 nəfər rəsmi nümayəndəsi vardı. Bir qadın nümayəndə iştirak edirdi: Ayna Sultanova.

Türk xalqlarının həyatında mühüm tarixi əhəmiyyətə malik olan bu qurultayın məhz Azərbaycanda, paytaxtımız Bakı şəhərində çağırılması, əlbəttə, bizim üçün böyük hadisə sayılır. O zaman bütün türk dünyasının və türk dünyası ilə maraqlanan siyasi mərkəzlərin diqqəti Bakıya yönəlmişdi. Türk ölkələrinin nümayəndələri ilə yanaşı, dünyanın çox nəhəng alimləri ya məruzəçi, ya da iştirakçı kimi qurultaya gəlmişdilər. Rusiyadan akademik V.Bartold, akademik S.F.Oldenburq, professor V.Şerba, böyük rus türkoloqu Samoyloviç, Türkiyədən XX əsrin böyük filoloqu Fuad Köprülüzadə, Almaniyadan Metsel və başqaları yüksək səviyyəli məruzələrlə çıxış etdilər. Orxon-Yenisey yazılarını ilk dəfə oxumuş Danimarka alimi Vilhelm Tomsen yaşlı olduğu üçün gələ bilməmişdi, ancaq qurultayın fəxri rəyasət heyətinə seçilmişdi və qurultay ona teleqram göndərmişdi. O dövr sovet elminin çox nəhəng alimi sayılan, ölü dillər üzrə dünyanın tanınmış alimi Nikolay Marr qurultaya dəvətli idi, ancaq xəstə olduğu üçün gələ bilməmişdi, onun da adı fəxri rəyasət heyətində idi. 1910-cu ildən Türkiyədə yaşayan, türk dünyasının imamı sayılan böyük Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadə öz arzusu ilə qurultaya qatılmışdı. Qurultay salonunun gurultulu alqışları altında Əli bəy fəxri üzv kimi rəyasət heyətinə qalxdı.

Təbii ki, Bakı Türkoloji Qurultayını dəyərləndirən amillərdən

* Məhərrəmov Abel Məmmədəli oğlu – Azərbaycan MEA-nın müxbir üzvü, əməkdar elm xadimi, BDU-nun rektoru, professor.

biri orada bu böyük elm adamlarının, tarixi şəxsiyyətlərin iştirakı olmuşdur. Ancaq, bu insanları ora cəmləşdirən əlbəttə ki, qurultayın məzmunu, gündəliyi və tarixi-siyasi dəyəri olmuşdur. Sovet dövləti məlum «Lenin milli siyasəti» şüarı altında türk xalqlarının görkəmli ziyalılarını bir yerə yığdı. Burada, əslində türk xalqlarının gələcək inkişafını təmin edən çox ciddi problemlər müzakirə olundu, türk xalqlarının tarixi, etnoqrafiyası, dili, ədəbiyyatı, mədəniyyəti, incəsənəti ilə bağlı dəyərli məruzələr oxundu. Bu məruzələrlə bağlı müvafiq sahələr üzrə qərarlar qəbul olundu. Həqiqətən, bu qərarların həyata keçirilməsi hər bir türk xalqının milli arzularının çiçəklənməsinə aparırdı. Ancaq belə oldumu? Bunlardan eləsi oldu ki, dərhal həyata keçirildi. Məsələn, latın əlifbasına keçmək haqqında qurultay böyük səs üstünlüyü ilə qərar qəbul etdi. Və bu qərarın gerçəkləşməsi üçün konkret işlər görüldü, çox fəal şəkildə tədbirlər həyata keçirildi. Nəticədə 1929-cu il yanvarın 1-dən türk xalqları latın əlifbasına keçdilər. Qurultayın bu qərarı baş tutdu, çünki bu Sovet dövlətinə lazım idi. Çünki bu, bir az sonra kiril əlifbasına keçmək üçün bir mərhələ idi. Belə ki, 1940-cı il yanvarın 1-də türk xalqları kiril əlifbasını qəbul etdi.

Bəs, qurultayın termin haqqındakı qərarı necə oldu? Qurultayda türk dilləri üçün termin hazırlanmasında xalis türk sözlərinin əsas götürülməsi haqqında qərar qəbul olundu. Ancaq 1930-cu illərdə rus və Avropa sözləri baş alıb gedir. Hətta «İnqilab və mədəniyyət» jurnalı «Revolyusiya və kultura» adlandırıldı. Prof. Tofiq müəllim mənə belə bir əhvalat danışdı - onlara da bunu Mir Cəlal müəllim deyib. Belə olur ki, bir gün Məmməd Səid Ordubadi küçədə Əvəz Sadığa rast gəlir, soruşur:

- Əvəz, orda nə var, nə yox?

Əvəz Sadıq bu jurnalın redaktoru imiş, cavab verir ki:

- Seyid, heç nə yoxdur, bir «və» qalıb, bir də «Əvəz Sadıq».

Əvəz Sadıq bunu nəzərdə tutub ki, jurnalın üstündə belə yazılır: **«Revolyusiya və kultura» jurnalı, redaktoru Əvəz Sadıq**. Yəni, revolyusiya, kultura, jurnal, redaktor sözlərinin rusca «və» və Əvəz Sadıq sözlərinin azərbaycanca olmasını nəzərdə tutub belə yumorla cavab verib.

Qurultayın möhtəşəm proqramının həyata keçirilməsinə Leninin «milli siyasət» dediyi şovinizm mane olurdu. 1937-ci il repressiyası isə, ümumiyyətlə, bu qurultayın tarixi qərarlarını qətl elədi. 1937-ci ilə qədər öz dünyasını dəyişmiş Səməd Ağamalıoğlundan başqa qurultayın bütün nümayəndələri istisnasız olaraq repressiya qurbanı oldular.

Bununla belə, Bakı Türkoloji Qurultayının oyatdığı duyğular o dövr gənclərinin şüurunda özünə yer elədi. Gələcəkdə bu gənclərdən hərəsi yetişdiyi bir sahədə qurultayın adını çəkmədən onun ideyalarını ehtiyatla həyata keçirdi. Bizim yaşlı nəsil dilçilərimiz imla, termin məsələləri ilə bağlı qurultayın tövsiyələrini tədricən ehtiyatla, ancaq dönmədən həyatda reallaşdırdılar.

Ümumiyyətlə, qurultay öz möhtəşəm gündəliyi və qərarları ilə

tarixə kök atmışdı. Stalinin şəxsiyyətinə pərəstişdən sonrakı dövrdə bu köklər pöhrələr verdi. Qurultayın ideyaları bərpa olundu. Hətta 1966-cı ildə yenə Bakıda I Türkoloji Qurultayın 40 illik yubileyi keçirildi və qərara alındı ki, Türkoloji Qurultay bərpa olunsun və 4 ildən bir çağırılsın. Doğrudan da, 4 ildən bir müxtəlif türk respublikalarında türkoloji toplantılar oldu. Ancaq sovet ideologiyası ona **qurultay** adı verməyə ehtiyat elədi, türk xalqlarının oyanmasından qorxdu, sadəcə «türkoloji konfrans» deyildi.

İndi Birinci Türkoloji Qurultayın 80 illiyi ərəfəsində bu məsələ hörmətli prezidentimiz İlham Əliyevin diqqətini çəkmiş və bu yubileyin qeyd olunması haqqında fərman vermişdir. Məlumdur ki, ümummilli liderimiz mərhum Heydər Əliyev xalqımızın tarixi ilə sıx bağlı olan hadisə və şəxsiyyətlərin yubileylərinin keçirilməsinə həmişə xüsusi diqqət yetirmişdir. Cənab İlham Əliyevin bu fərmanı bir daha göstərdi ki, bütün sahələrdə olduğu kimi, tarixi hadisələrə münasibətdə də Heydər Əliyev kursu davam etdirilir. Heç şübhəsiz, bu yubiley görkəmli türkoloqların görüşü ilə müxtəlif türk xalqlarının ünsiyyətinə müəyyən təsir göstərəcəkdir.

Cənab prezident fərmanda bu yubileyin keçirilməsi ilə bağlı tədbirləri Azərbaycan MEA-a və Azərbaycan Respublikası Təhsil Nazirliyinə həvalə etmişdir. Təhsil Nazirliyinin tərkibi olaraq biz – Bakı Dövlət Universiteti bu tədbiri yüksək səviyyədə qeyd edirik. Belə ki, indi konfransın açılışından sonra konfrans öz işini iki bölmədə davam etdirəcəkdir. Bu yubiley tədbirində qırxa yaxın məruzə oxunacaqdır. Məruzələrin mətni Bakı Universitetinin Elmi Xəbərlərinin humanitar seriyasının xüsusi nömrəsində çap olunacaqdır. Hesab edirəm ki, bu nəşrlə hörmətli prezidentimiz İlham Əliyev cənablarının fərmanı tarixin yaddaşına keçəcəkdir.